**Azerbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

**Təsdiq edirəm:**

Tədris məsələləri üzrə prorektor v.i.e:

_______________**dos. Zaur Məmmədov**

"12" ___09___ 2025-ci il

# FƏNN SİLLABUSU

**İxtisas:**050711"Zoomühəndislik"
**Fakulte:**"Baytarlıq".
**Kafedra:**"Baytarlıq və zoomühəndislik elmləri"
**I.Fənn haqqında məlumat:**
**Fənnin adı:"Qoyunçuluğun əsasları"** (Azərbaycan Dövlət Aqrar Universitetinin "Heyvandarlıq və balıq məhsulları istehsalının texnologiysı" kafedrasının 26.05.2011-ci il 10 saylı protokolundan çıxarışı və Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmri, 28.11.2011-ci il tarixli 1863 nömrəli qrifi ilə yenidən çap olunması məsləhət bilinmişdir).
**Kodu:**İPF-B20
**Tədris ili**: III (2025-2026)
**Semestr:** V (payız)
**Tədrisyükü:** cəmi 120 saat. Auditoriyadankənar.75 saat.Auditoriya saatı-45 saat (30 saat mühazirə, 15 saat laboratoriya)
**Tədris forması**: Əyani
**Tədris dili**: Azərbaycan dili
**AKTS üzrə kredit: 4**
**Auditoriya№**:
**II:Müəllim haqqında məlumat:**
Adı,soyadı,elmi dərəcəsi və elmi adı:biol.ü.f.d. dosent Qarayev Vəli Xanbaba oğlu
Kafedranın ünvan: Lənkəran ş., Füzuli küç., 170-a
E-mail ünvanı: **veli.qarayev@rambler.ru**
**III:Tövsiyyə olunan dərslik, dərs vəsait və metodik vəsaitlər:**
Tövsiyyə olunan dərsliklər və dərsvəsaitləri:
1.Q.Q.Abdullayev, M.İ.Əliyev "Qoyunçuluq", Bakı-2014-cü il. 451 səh.
2.Q.Q.Abdullayev, M.İ.Əliyev. "Heyvandarlığın əsasları", Bakı 2012-ci i. 311 səh.
3. Q.Q.Abdullayev"Kənd təsərrüfatı heyvanlarının yetişdirilməsi", Bakı 2019-cı il. 349 səh.
4.T.A.Cəfərov "Heyvandarlığın əsasları" 1983-cü il. 315 səh.
**IV. Prerekvizitlər:** Bu fənnin tədrisi üçün tələbələrin əvvəlcədən başqa fənləri keçməsi tələb olunmur.
**V. Korekvizitlər:** Fənnin tədrisi zamanı eyni semestrdə başqa fənlərin keçirilməsi zəruri hesab edilmir.
**VI.Fənnin təsviri və məqsədi:** Hər mövzu 2 saat olmaqla 15 mövzunu əhatə edən ümumilikdə 30 saatlıq dərs üçün nəzərdə tutulan **fənnin təsviri və məqsədi:**

➢ **Fənnin təsviri:** Ölkə əhalisinin artdığı indiki şəraitdə onların heyvandarlıq məhsullarına olan tələbatının ödənilməsinin zəruriliyini nəzərə alaraq, ərzaq təhlükəsizliyi ilə bağlı Respublika Prezidentinin müraciətinə cavab olaraq qoyunçuluğun inkişaf etdirilməsində mühüm rolu istisna edilməyən ixtisaslı mütəxəssislərin **hazırlanması üçün "Qoyunçuluğun əsasları" fənninin tədrisi vacibdir** "Qoyunçuluğun əsasları" fənni tələbələrə qoyunların

CamScanner ilə skan edilib

mənşəyi, cins tərkibi, yetişdirilmə texnologiyası, qidalanma, seleksiya və xəstəliklərə qarşı mübarizə üsulları haqqında əsas bilik və anlayışları təqdim edir. Fənn həmçinin qoyun məhsullarının (ət, yun, süd və s.) istehsalı və keyfiyyətinə dair nəzəri və praktik bilikləri əhatə edir.

- **Fənnin meqsedi:**
- Fənnin əsas meqsedi tələbələrdə qoyunçuluq sahəsində elmi və praktiki biliklərin formalaşdırılması, qoyunların effektiv yetişdirilməsi və idarə olunması üzrə bacarıqların aşılanmasıdır. Müvafiq ixtisaslı mütəxəssislərin qoyunçuluğun müxtəlif sahələrini ( əhəmiyyəti, anatomiya və fiziologiyası, yetişdirilməsi üsulları, yemlənməsi, saxlama,cinsləri, ərzaq və qeyri ərzaq məhsullarının texnologiyası və s.), habelə onların xəstəliklərinin profilaktikası və müalicə tədbirləri və s. haqqında məsələlərini də öyrənmələri lazımdır. Bununla belə, tələbələr, əsasən fənni mənimsəməklə yanaşı, həm də qoyunçuluq təsərrüfatlarının təşkili, cins seçimi, yemləmə və sağlamlıq tədbirləri üzrə əsas anlayışlara da yiyələnəcəklər.

**VII. Davamiyyətə dair tələblər:**

Tələbələr fənn üzrə dərslərin keçirildiyi bütün auditoriya saatlarında (mühazirə, seminar və ya praktik) **müntəzəm iştirak etməlidirlər**. Semestr ərzində buraxılmış dərs saatlarının ümumi miqdarı, **LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına əsasən müəyyən edilmiş həddi aşarsa**, tələbə:Fənn üzrə **imtahana buraxılmır** və həmin fənn üzrə **akademik borclu** sayılır.Davamiyyət müntəzəm yoxlanılır və əsas qiymətləndirmə komponentlərindən biri hesab olunur.

**VIII.Qiymətləndirmə:**Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: seminar və laboratoriya dərslərində fəaliyyətinə görə 20 bal; kollokviumların nəticələrinə görə 30 bal. Qiymətləndirmədə LDU-nun Elmi Şurasının 16 may 2024- cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzərə alınır. İmtahanda qazanılan balların maksimum miqdarı 50 olmalıdır. İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir. Qiymət meyarları aşağıdakılardır:

- 10 bal -tələbə keçilmiş material dərindən başa düşür,cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir;
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş materialı başa düşür,lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal - tələbənin cavabı əsasən düzgündür;
- 5 bal- tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal -tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal - suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın ümumi miqdarı 17-dən az olmamalıdır.Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur. Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında) aparılır:

91- 100 bal - əla (A);
81- 90 bal- çox yaxşı (B);

CamScanner ilə skan edilib

71- 80 yaxşı (C);
61- 70 qənaətbəxş (D);
51-60 bal -kafi (E);
51-baldan aşağı-qeyri-kafi(F).

**IX. Davranış qaydaları pozulması:** Tələbə Universitetin daxili nizam-intizam qaydalarını pozduğu təqdirdə müvafiq qaydada haqqında tədbir görülür.

**X.Təqvim mövzu planı: Mühazirə 30 saat, laboratoriya 15 saat**

| Sn | Keçirilən mühazirə mövzularının məzmunu | Müh | Tarix |
|---|---|---|---|
| 1 | **Mövzu 1. Qoyunçuluğun xalq təsərrüfatı əhəmiyyəti.**<br>**Plan:**<br>• dünya üzrə qoyunçuluğun inkişaf dinamikası.<br>• doyunların yetişdirilməsi və məhsuldarlıq istiqaməti.<br>• Republikamızda qoyunçuluğun kənd təsərrüfatında əhəmiyyət<br>**Mənbə(1;2;3;4)** | 2 | |
| 2 | **Mövzu 2. Qoyunların anatomiya və fiziologiyasının əsasları.**<br>**Plan:**<br>• qoyunların hərəkət aparatı, skelet, əzələ sistemi<br>• ürək- qandamar sistemi, həzm üzvləri<br>• cinsiyyət orqanları<br>• bioloji çoxalma, süni mayalanma<br>**Mənbə(1;2;3;4)** | 2 | |
| 3 | **Mövzu 3.Qoyunların konstitusiyası, eksteryer və interyeri.**<br>**Plan:**<br>• qoyunların konstitusiya tipləri<br>• qoyunların eksteryeri<br>• interyer xüsusiyyətləri<br>**Mənbə(1;2;3;4)** | 2 | |
| 4 | **Mövzu 4.Qoyunların yetişdirilməsi üsulları.**<br>**Plan:**<br>• təmizlikdə yetişdirmə<br>• qohumluq dərəcəsinə görə çarpazlaşdırma<br>• qoyunların xətt üzrə yetişdirilməsi<br>• çarpazlaşdırma üsulları<br>**Mənbə(1;2;3;4)** | 2 | |
| 5 | **Mövzu 5.**Qoyunların bioloji xüsusiyyətləri<br>**Plan:**<br>• qoyunların əhliləşmə sistematikası<br>• qoyunların eramıza qədər və ondan əvvəlki fenotipi və böyüklüyü<br>• müxtəlif eralarda qoyunçuluğun iqtisadi əhəmiyyəti<br>**Mənbə(1;2;3;4)** | 2 | |
| 6 | **Mövzu 6.Damazlıq işi - yetişdirmə üsulları.**<br>**Plan:**<br>• ana qoyunların nəslin keyfiyyətinə görə seçilməsi<br>• müxtəlif məhsuldarlıq istiqamətli qoyunların seçilməsinə qoyulan əsas tələblər<br>• qoyunların taylaşdırılmasının əsasları<br>• taylaşdirma<br>**Mənbə(1;2;3;4)** | 2 | |

CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| 7 | **Mövzu 7. Qoyunların bonitresi.**<br>**Plan:**<br>• qoyunların bonitrə siniflərinə ayrılması<br>• onitrənin təşkili və aparılma texnikası<br>• zərif yunlu müxtəlif məhsuldarlıq istiqamətli cinslərinin standart tələbatları<br>• ətlik –yunluq qısayunlu qoyunların standartı davam etmək<br>• yunluq-ətlik cins qoyunların standartları<br>**Mənbə(1;2;3;4)** | 2 | |
| 8 | **Mövzu 8. Qoyunların yemlənmə və saxlanması.**<br>**Plan:**<br>• yem vəsaitlərinin qiymətləndirilməsi<br>qoyunlar üçün xarakterik yemlər<br>• qoyunların yemlənməsi üçün yemlərin xarakterizəsi<br>• qoyunların yem norması və yem rasionu<br>• yemlərin həzm olunması<br>• qoyunların yemləmə və saxlama sistemi<br>**Mənbə(1;2;3;4)** | 2 | |
| 9 | **Mövzu 9.Qoyun cinsləri.**<br>**Plan:**<br>• zərif yunlu qoyun cinsləri<br>• zərif yunlu qoyunların qısa tarixi<br>• yunluq məhsuldarlıq istiqamətli qoyun cinsləri<br>• yunluq-ətlik zərif yunlu qoyun cinsləri<br>• ətlik-yunluq zərifyunlu qoyun cinsləri<br>• yarımqaba yunlu qoyun cinsləri<br>• qabayunlu qoyun cinsləri<br>• ətlik –kürklük qoyun cinsləri<br>• xəzlik qoyun cinsləri<br>**Mənbə(1;2;3;4)** | 2 | |
| 10 | **Mövzu 10.Yun və runonun əmələ gəlməsi**<br>**Plan:**<br>• yun, onun morfoloji, histoloji quruluşu kimyəvi tərkibi<br>• yun telinin tipləri və yunun növləri<br>• qırxım vaxtından asılı olaraq yunun növü<br>• yunun fiziki- mexaniki xassələri<br>• yunun texnoloji xassələri<br>• qoyunların qırxılması<br>**Mənbə(1;2;3;4)** | 2 | |
| 11 | **Mövzu 11.Qoyunların ət məhsuldarlığı**<br>**Plan:**<br>• qoyunların ət məhsuldarlığı göstəriciləri və onların qiymətləndirilmə üsulları<br>• qoyun ətinin sortu və bu sortların anatomik sərhədləri<br>• qoyunların ət məhsuldarlığının yüksəldilməsi<br>• ət məhsuldarlığının formalaşması<br>• seleksiya yolu ilə qoyunların ət məhsuldarlığının yüksəldilməsi<br>**Mənbə(1;2;3;4)** | 2 | |

CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| 12 | **Mövzu 12.Qoyunların süd məhsuldarlığı**<br>**Plan:**<br>• qoyun südünün tərkib və xassələri qoyunların sağılması<br>• qoyun südünün işlənməsi<br>**Mənbə(1;2;3;4)** | 2 | |
| 13 | **Mövzu 13. Qoyunların dəri məhsuldarlığı**<br>**Plan:**<br>• qoyun dərisi və onun xarakterizəsi<br>• xəzlik qoyun dərisi<br>• kürklük qoyun dəriləri<br>• gönlük qoyun və quzu dəriləri<br>• qoyun dərisinin konservləşdirilməsi<br>• dərinin keyfiyyətinin yaxşılaşdırılma yolları və itkinin azaldılması<br>**Mənbə(1;2;3;4;5;6;7)** | 2 | |
| 14 | **Mövzu 14.Qoyunlar üçün bina, tikililər və qoyunçuluqda istehsal proseslərinin mexanikləşdirilməsi.**<br>**Plan:**<br>• müxtəlif qrup qoyunlar üçün sahə norması<br>• qoyun peyini<br>• qoyunçuluqda istehsal proseslərinin mexanikləşdirilməsi<br>**Mənbə(1;2;3;4)** | 2 | |
| 15 | **Mövzu 15.Qoyunlarda rast gəlinən xəstəliklər onların profilaktikası və müalicəsi**<br>**Plan:**<br>• keyfiyyətsiz yemləmə nəticəsində yaranan xəstəliklər və buna qarşı tədbirlər<br>• yemlə zəhərlənmə toksikozu<br>**Mənbə(1;2;3;4)** | 2 | |
| | **Cəmi:** | **30 s.** | |

| | Laboratoriya– praktiki məşğələlər. | saat | tarix |
|---|---|---|---|
| 1 | **Mövzu 1.**Qoyunların anatomiya və fiziologiyası. Çoxalma xüsusiyyətlərinin öyrənilməsi<br>Mənbə(1;2;3;4) | 2 | |
| 2 | **Mövzu 2.**Qoyunların konstitusiyası tiplərinin öyrənilməsi.<br>Mənbə(1;2;3;4) | 2 | |
| 3 | **Mövzu 3.**Qoyunların eksteyerinin öyrənilməsi.<br>Mənbə(1;2;3;4) | 2 | |
| 4 | **Mövzu 4.**Qoyunların interyeri.<br>Mənbə(1;2;3;4) | 2 | |
| 5 | **Mövzu 5.**Qoyunçuluqda seçmənin aparılması.<br>Mənbə(1;2;3;4) | 2 | |
| 6 | **Mövzu 6.**Yetişdirmə üsullarının öyrənilməsi.<br>Mənbə(1;2;3;4) | 2 | |
| 7 | **Mövzu 7.**Qoyunçuluqda hibridləşdirmə.<br>Mənbə(1;2;3;4) | 2 | |

CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| 8 | **Mövzu 8.**Qoyunların yemləndirilməsi. Yemlərin xarakterizəsi. Mənbə(1;2;3;4) | 1 | |
| | **Cəmi:** | **15 s.** | |

**XI. Fənn üzrə tələblər:** Qoyunçuluq haqqında məlumat verilir. Qoyunların anatomiya və fiziologiyasının əsasları, yetişdirilməsi üsulları, cinsləri və məhsuldarlığı məsələlərini öyrədir.
**XII. Fənn üzrə təlimin nəticələri:** Qoyunların eksteryerinin gözəyarı qiymətləndirilməsini, onların , quzuların saxlanma və bəslənmə üsullarını bilmək.
**XIII. Tələbələrin fənn haqqında fikrini öyrənilməsi:**

---

---

**XIV: I. Kollokvium sualları:**

1. Dünya üzrə qoyunçuluğun inkişaf dinamikası
2. Qoyunların yerləşməsi və məhsuldarlıq istiqaməti
3. Republikamızda qoyunçuluğun kənd təsərrüfatında əhəmiyyəti
4. Qoyunların hərəkət aparatı, skelet, əzələ sistemi
5. Ürək- qandamar sistemi, həzmüzvləri
6. Cinsiyyət orqanları
7. Bioloji çoxalma, süni mayalanma
8. Qoyunların konstitusiya tipləri
9. Qoyunların eksteryeri
10. İnteryer xüsusiyyətləri

**II. Kollokvium sualları:**

1. Ana qoyunların nəslin keyfiyyətinə görə seçilməsi
2. Müxtəlif məhsuldarlıq istiqamətli qoyunların seçilməsinə qoyulan əsas tələbatlar
3. Qoyunların taylaşdırılmasının əsasları
4. Taylaşdirma
5. Qoyunların bonitrə siniflərinə ayrılması
6. Bonitrənin təşkili və aparılma texnikası
7. Zərif yunlu müxtəlif məhsuldarlıq istiqamətli cinslərinin standart tələbatları
8. Ətlik –yunluq qısayunlu qoyunların standartı davam etmək
9. Yunluq- ətlik cins qoyunların standartları
10. Yem vəsaitlərinin qiymətləndirilməsi

**XV.İmtahan sualları:**

1.Dünya üzrə qoyunçuluğun inkişaf dinamikasına təsir edən əsas amillər hansılardır?
2.Qoyunçuluğun kənd təsərrüfatında iqtisadi əhəmiyyətini izah edin.
3.Azərbaycanda qoyunçuluğun inkişaf istiqamətləri hansılardır?
4.Qoyunların məhsuldarlıq istiqamətləri üzrə təsnifatı necə aparılır?
5.Ətlik və yunluq istiqamətli qoyunçuluq təsərrüfatlarının fərqləri nədən ibarətdir?
6.Qoyunların skelet sisteminə aid olan əsas sümükləri sadalayın.
7.Qoyunlarda əzələ sisteminin funksiyasını izah edin.
8.Qoyunlarda qan dövranı sisteminin əsas orqanları hansılardır?
9.Həzm sisteminin əsas mərhələlərini qeyd edin.
10.Qoyunların cinsiyyət orqanlarının quruluş və funksiyalarını izah edin.
11.Qoyunlarda bioloji çoxalma prosesinin mərhələlərini sadalayın.
12.Süni mayalanma nədir və hansı üstünlüklərə malikdir?
13.Ana qoyunların seçimində hansı keyfiyyətlər nəzərə alınmalıdır?
14.Qoyunlarda reproduktiv qabiliyyətə təsir edən amillər hansılardır?
15.Qoyunlarda konstitusiya tipləri necə müəyyən olunur?
16.Eksteryer nədir və necə qiymətləndirilir?

CamScanner ilə skan edilib

17.İnteryer xüsusiyyətləri dedikdə nə başa düşülür?
18.Qoyunların konstitusiyasının məhsuldarlıqla əlaqəsi varmı? Əgər varsa, necə?
19.Təmizlikdə yetişdirmə üsulunun mahiyyəti nədir?
20.Qohumluq üzrə çarpazlaşdırma hansı məqsədlərlə aparılır?
21.Xətt üzrə yetişdirmənin üstünlükləri və çatışmazlıqları nələrdir?
22.Çarpazlaşdırmanın əsas üsullarını izah edin.
23.Taylaşdırma nədir və hansı prinsiplərə əsaslanır?
24.Bonitrləmə zamanı qoyunlar hansı siniflərə bölünür?
25.Bonitrləmənin aparılma texnikasını izah edin.
26.Seçmə zamanı nəslin keyfiyyətinə əsaslanan meyarlar hansılardır?
27.Zərif yunlu qoyun cinslərinə misal verin və xüsusiyyətlərini qeyd edin.
28.Qabayunlu və yarımqabayunlu qoyun cinsləri arasında fərqləri izah edin.
29.Ətlik-yunluq qısayunlu qoyunların məhsuldarlıq göstəriciləri nələrdir?
30.Xəzlik qoyun cinslərinin təsərrüfatdakı istifadəsi nədən ibarətdir?
31.Yunluq məhsuldarlıq istiqamətli qoyun cinslərinin seçilmə meyarları hansılardır?
32.Yunun əsas fiziki və mexaniki xassələri hansılardır?
33.Yunun morfoloji quruluşunu izah edin.
34.Yunun histoloji və kimyəvi tərkibi nədir?
35.Yun məhsuldarlığına təsir edən əsas amilləri sadalayın.
36.Yetişdirmədə məhsuldarlıq istiqamətlərinin düzgün seçilməsinin əhəmiyyəti nədir?
37.Seleksiya və taylaşdırmanın qoyun sürüsündə məhsuldarlığa təsiri necədir?
38.Bonitrləmə nəticələri təsərrüfat qərarlarına necə təsir edir?
39.Süni mayalanmanın tətbiqində yol verilən tipik səhvləri qeyd edin.
40.Müasir qoyunçuluqda innovativ texnologiyaların tətbiq imkanlarını izah edin

**"Qoyunçuluğun əsasları"** fənninin sillabusu 050711 "Zoomühəndislik" ixtisası üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. Sillabus "Baytarlıq və zoomühəndislik elmləri" kafedrasında müzakirə edilərək (12 sentyabr 2025-ci il 01 saylı protokol) təsdiq olunmuşdur.

**Fənn müəllimi:** **dos. V.X.Qarayev**

**Kafedra müdiri:** **dos. R. M. Bilalov**

CamScanner ilə skan edilib